**“Şəffaflıq Azərbaycan” Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin təşkilatçılığı və “Bakıelektrikşəbəkə” ASC-nin iştirakı ilə**

**2011-ci il 14 iyun tarixində**

*“ELEKTRİK ENERJİSİ TƏCHİZATI SAHƏSİNDƏ ŞƏFFAFLIĞIN ARTIRILMASI”*

**mövzusunda keçirilən**

**Dəyirmi Masanın yekunu və verilən tövsiyələr**

***Ön söz***

*Bu tövsiyələr “Şəffaflıq Azərbaycan” təşkilatı tərəfindən Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Agentiliyinin (USAID) maliyyə dəstəyi əsasında həyata keçirilən İctimai Maraqların Müdafiəsi və Hüquq Məsləhət Mərkəzi (ALAC) layihəsinin ictimai müzakirələr komponenti çərçivəsində hazırlanmışdır və donorların rəsmi mövqeyini əks etdirməyə bilər.*

Ötən illər ərzində “Bakıelektrikşəbəkə” Açıq Səhmdar Cəmiyyəti paytaxt əhalisinin elektrik enerjisi ilə təminatı sahəsində xeyli irəliləyişə nail olmuş, öz fəaliyyətində səmərəliliyi artırmağa səy göstərmişdir. “Bakıelektrikşəbəkə” ASC-nin investisiya proqramına uyğun olaraq yeni enerji güc mərkəzlərinin yaradılması üçün tədbirlər həyata keçirilir. Diqqət çəkən məqamlardan biri də paytaxtın elektrik təchizatının dayanıqlılığını və etibarlılığını təmin edəcək, perspektiv tələbləri ödəyəcək 110 kilovoltluq dairəvi elektrik şəbəkəsinin yaradılmasıdır. Bununla da paytaxtın elektrik enerjisi təchizatında keçmişdə olan bütün problemlər aradan qaldırılaraq analoqu olmayan yeni sistem formalaşdırılır.

Tədbirin keçirilməsində əsas məqsəd bu sahədə nəzərə çarpan çatışmazlıqları müzakirə etmək, onların həlli istiqamətində atıla biləcək addımları nəzərdən keçirmək olmuşdur. Eyni zamanda vətəndaş cəmiyyəti üzvləri ilə hakimiyyət nümayəndələrinin birgə dialoqunu qurmaq, ictimai müzakirələrin genişləndirilməsinə nail olmaq üçün dəyirmi masanın keçirilməsi məqsədəuyğun hesab edilmişdir. Bununla əlaqədar “Şəffaflıq Azərbaycan” Korrupsiya qarşı Mübarizə İB-nin təşkilatçılığı ilə “Bakıelektrikşəbəkə” ASC**,** yerli qeyri-hökumət təşkilatları və beynəlxalq qurumların iştirakı ilə dəyirmi masa təşkil edilmişdir. Yekunda dəyirmi masanın gedişi zamanı aparılan müzakirələr, səsləndirilən fikirlər, irəli sürülən təkliflər ümumiləşdirilərək tövsiyyə halına salınıb və “Bakıelektrikşəbəkə” ASC-yə təqdim edilib. Tövsiyələrin hazırlanmasında aşağıdakı şəxslərin fikirlərindən istifadə olunub.

- Rəna Səfərəliyeva, “Şəffaflıq Azərbaycan” İB-nin İcraçı Direktoru;
- Əliməmməd Nuriyev, Konstitusiya Araşdırmalar Fondunun prezidenti, Korrupsiyaya qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsinin Koordinatoru;
- Ələkbər Ağasıyev, Konstitusiya Araşdırmalar Fondunun eksperti

| **MÜŞTƏRİ XİDMƏTLƏRİ VƏ ABONENT ETIRAZLARINA BAXILMASI QAYDARARI** | |
|---|---|
| Mövcud vəziyyət | Analiz |
| www.bes.az saytından görünür ki, “Bakıelektrikşəbəkə” ASC-nin Müştəri Xidmətləri və Abonent Etirazları üzrə Komissiyası fəaliyyət göstərir. Müştəri Xidmətlərindən həftənin 7 günü saat 8.30-21.00 arasında fasiləsiz xidmət almaq, elektron şəkildə xidmət göstərəcək MXM-də suallara dərhal cavab tapmaq, hesab və bildiriş problemlərini həll etmək, arayış sənədini dərhal əldə etmək, elektrik enerjisi borcunu ödəmək mümkündür. (telefonlar: 598-22-46, 598-22-47) | Abonent Etirazları üzrə Komissiyanın səlahiyyət dairəsi haqqında hər hansı dürüst məlumat əldə etmək mümkün görünmür. |

| TÖVSIYƏ |
|---|
| *Tövsiyə olunur ki, "Bakıelektrikşəbəkə" ASC-nin Müştəri Xidmətləri və Abonent Etirazları üzrə Komissiyasının fəaliyyət prinsipləri, səlahiyyətləri və vəzifələri barədə ictimaiyyətə ətraflı məlumat verilsin (o cümlədən, www.bes.az saytında bu barədə təfsilatlı məlumat almaq imkanı yaradılsın), Mətbuat Xidməti isə KİV, QHT-lərlə əlaqələrini daha genişləndirsin.* |

| **ELEKTRİK ENERJİSINDƏN İSTİFADƏ QAYDALARI[1]** | |
|---|---|
| **Fəsil 10. Enerjitəjhizatı müəssisəsinin məsuliyyəti** | |
| Mövcud vəziyyət | Analiz |
| 10.1. Enerjisistemdə və ya müəssisəsinin şəbəkəsində baş vermiş qəza nəticəsində **istehlakçıya** ziyan dəymişdirsə (elektrikqəbuledicilərin zədələnərək yararsız hala düşməsi, məhsulun zay olması və s.), enerjitəchizatı müəssisəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq **istehlakçı** qarşısında maddi məsuliyyət daşıyır.<br>10.2. Enerjitəchizatı müəssisəsi aşağıda göstərilən səbəblərlə əlaqədar dəymiş ziyana görə **istehlakçı** qarşısında maddi məsuliyyət daşımır:<br>10.2.1. fors-major hadisə ilə əlaqədar;<br>10.2.2. kənar şəxslərin düzgün olmayan hərəkətləri (səhvən birləşdirmə, açma və keçirmə, hava elektrik veriliş xətlərinin naqillərinin üzərinə kənar əşyaların atılması, hava və ya kabel elektrik veriliş xətlərinin mexaniki zədələnməsi və s.) nəticəsində baş vermiş qəzalarla əlaqədar;<br>10.2.3. bu Qaydaların 9.12, 9.13, 9.15 və 9.16-cı bəndlərində nəzərdə tutulmuş, **istehlakçıya** elektrik enerjisi verilişinin dayandırılması və məhdudlaşdırılması şərtləri ilə əlaqədar;<br>10.2.4. bu Qaydaların 9.14-cü bəndinə uyğun olaraq, işlərin yerinə yetirilməsilə əlaqədar.<br>10.3. **Istehlakçı** elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən olunmuş müddətdə sərf etdiyi elektrik enerjisinin haqqını ödəmədikdə, enerjitəchizatı müəssisəsi şəbəkəsində və ya enerjisistemdə baş vermiş qəza nəticəsində **istehlakçıya** dəymiş ziyana görə onun qarşısında maddi məsuliyyət daşımır.<br>10.4. Enerjitəchizatı müəssisəsi dəymiş ziyan haqqında **istehlakçıdan** daxil olmuş müraciətə on gündən gec olmayaraq baxır və bu Qaydalara uyğun olaraq **istehlakçıya** ödəniş ödəyir.<br>10.5. **Istehlakçıya** elektrik enerjisinin kəsirlə verilməsi müddəti və onun səbəbləri enerjitəchizatı müəssisəsinin və **istehlakçının** əməliyyat sənədləri üzrə müəyyənləşdirilir.<br>10.6. **Istehlakçının** təqsirindən baş vermiş qəza nəticəsində enerjitəchizatı müəssisəsinin başqa **istehlakçılarına** ziyan dəymişdirsə təqsirkar | "Elektrik enerjisindən istifadə Qaydaları"nın "Enerjitəjhizatı müəssisəsinin məsuliyyəti" adlanan 10-cu fəslində enerjitəchizat müəssisənin istehlakçılar və dövlət elektroenergetika müəssisəsi qarşısında məsuliyyəti ətraflı şəkildə əks olunmuşdur. Biz cədvəldə həmin fəslin enerjitəjhizatı müəssisəsinin yalnız istehlakçılar qarşısında məsuliyyətindən bəhs edən hissəsini gətirmişik, fəslin enerjitəchizatı müəssisəsinin dövlət elektroenergetika müəssisəsi qarşısında məsuliyyətindən, enerjitəchizatı müəssisəsinin digər vəzifələrindən bəhs edən hissəsini isə buraxmışıq, çünki sonuncu məsələlər bu təhlilin predmeti deyil.<br>"Elektrik enerjisindən istifadə Qaydaları"nın 1.2-ci maddəsində göstərilmişdir ki, bu Qaydaların icrası tabeliyindən, mülkiyyət formasından, maliyyə mənbəyindən asılı olmayaraq dövlət elektroenergetika müəssisəsi, enerjitəchizatı müəssisələri, müstəqil enerji istehsalçıları və elektrik enerjisi istehlakçıları üçün məcburidir.<br>Həmin Qaydaların 1.3-ci maddəsində göstərilmişdir ki, enerjitəchizatı müəssisəsi ilə abonent arasında elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanmalıdır. Elektrik enerjisinin alqı-satqı müqavilələri bu Qaydalara əlavə edilmiş birtipli müqavilələrə (1-5 nömrəli əlavələr) uyğun bağlanmalıdır.<br>Həmin Qaydaların 2 saylı əlavəsində "Enerjitəchizatı müəssisəsi ilə qeyri-istehsal müəssisəsi, ticarət, ictimai iaşə və digər növ xidmət müəssisəsi (bundan sonra – abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli müqaviləsi" və 4 saylı əlavəsində "Enerjitəjhizatı müəssisəsi ilə məişət abonenti (əhali) arasında elektrik enerjisinin alqı-satqısının birtipli müqaviləsi"nin nümunələri yerləşdirilmişdir. (bax aşağıda)<br>Qeyd olunmalıdır ki, "Bakıelektrikşəbəkə" ASC tərəfindən www.bes.az saytında "Fiziki və hüquqi şəxslərin enerji qəbuledicilərinin (elektrik qurğularının) "Bakıelektrikşəbəkə" ASC-nin və |

[1] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli qərarı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 yanvar tarixli 3 nömrəli qərarı ilə əlavə və dəyişikliklər edilmişdir.

| | |
|---|---|
| **istehlakçı** dəymiş ziyana görə enerjitəchizatı müəssisəsi qarşısında sonuncunun başqa **istehlakçılara** ödədiyi ödəniş dəyərində maddi məsuliyyət daşıyır.<br>10.7. Enerjitəchizatı müəssisəsi balans mənsubiyyəti sərhədində və şəbəkəsində elektrik enerjisinin keyfiyyət göstəricilərini qüvvədə olan standartların tələblərinə uyğun saxlamağa borcludur.<br>10.8. Enerjitəchizatı müəssisəsi ilə **istehlakçı** arasındakı balans mənsubiyyəti sərhədində elektrik enerjisinin tələb olunan keyfiyyət göstəriciləri standartlara və "Ümumi təyinatlı elektrik şəbəkələrində elektrik enerjisinin keyfiyyətinə nəzarət və təhlili üzrə metodik göstərişlər"ə uyğun müəyyən edilir.<br>10.9. Enerjitəchizatı müəssisəsi və **istehlakçı** bu Qaydaların 10.8-ci bəndində qeyd edilən metodik göstərişlərə əsasən, elektrik şəbəkələrinin balans mənsubiyyəti sərhədində elektrik enerjisinin keyfiyyətinə daimi, vaxtaşırı (ildə 2-4 dəfə) və ya epizodik nəzarət etməyə borcludurlar.<br>10.11. Enerjitəchizatı müəssisəsinin təqsirindən **istehlakçıya** aşağı keyfiyyətli (bir və ya eyni zamanda bir neçə göstərici üzrə) elektrik enerjisi buraxıldıqda, enerjitəchizatı müəssisəsi, buraxılmış aşağı keyfiyyətli elektrik enerjisinin dəyərinin 25 faizi məbləğində **istehlakçıya** ödəniş ödəyir. Əgər aşağı keyfiyyətli elektrik enerjisinin təsirindən **istehlakçıya** ziyan dəymişdirsə (elektrikqəbuledicilərin zədələnərək yararsız hala düşməsi, məhsulun zay olması və s.), enerjitəchizatı müəssisəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq **istehlakçı** qarşısında maddi məsuliyyət daşıyır.<br>10.12. Elektrik enerjisinin keyfiyyətinin aşağı düşməsinə təqsirkar tərəf və aşağı keyfiyyətli elektrik enerjisi ilə (faizlə ölçmənin müddətinə) işləmə müddəti "Ümumi təyinatlı elektrik şəbəkələrində elektrik enerjisinin keyfiyyətinə nəzarət və təhlili üzrə metodik göstərişlər"ə uyğun olaraq, statistik və ya qeydedici cihazların ölçülərinin nəticələri ilə müəyyənləşdirilir. Ölçülərin nəticələri enerjitəchizatı müəssisəsinin, "Dövlət Enerjinəzarət" Idarəsinin, **istehlakçının**, yaxud dövlət elektroenergetika müəssisəsinin səlahiyyətli nümayəndələrinin tərtib etdiyi aktla rəsmiləşdirilir.<br>10.13. **Istehlakçı**, elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən edilmiş müddətdə sərf etdiyi elektrik enerjisinin haqqını ödəmədiyi, elektrik enerjisi rejimlərinə, həmçinin reaktiv gücün optimal göstəricilərinə, o cümlədən reaktiv | abonentlərin elektrik şəbəkələrinə qoşulma Qaydaları"ndan başqa, "Bakıelektrikşəbəkə" ASC tərəfindən qəbul edilmiş hər hansı digər əmr və qaydalar yerləşdirilməmişdir. Bu səbəbdən "Bakıelektrikşəbəkə" ASC ilə enerji istehlakçılarının münasibətlərini, onların qarşılıqlı məsuliyyətini tənzimləyən hər hansı bir normativ aktın mövcudluğu barədə fikir yürütmək çətindir. "Fiziki və hüquqi şəxslərin enerji qəbuledicilərinin (elektrik qurğularının) "Bakıelektrikşəbəkə" ASC-nin və abonentlərin elektrik şəbəkələrinə qoşulma Qaydaları"na gəldikdə isə, həmin qaydalarda "Bakıelektrikşəbəkə" ASC-nin enerji istehlakçıları qarşısında məsuliyyəti barədə hər hansı bir müddəa yer almamışdır. |

| | |
|---|---|
| gücün kompensasiya qurğularının iş rejimlərinə əməl etmədiyi, elektrik enerjisi sərfi üzrə müqavilə göstəricisini aşdığı, enerjisistemdə güc, elektrik enerjisi çatışmazlığı və ya qəza vəziyyəti ilə əlaqədar tətbiq edilən məhdudiyyət və birbaşa açılma qrafiklərinə əməl etmədiyi hallarda enerjitəchizatı müəssisəsi **istehlakçı** qarşısında buraxılmış aşağı keyfiyyətli elektrik enerjisinə və ya bununla əlaqədar dəymiş ziyana görə maddi məsuliyyət daşımır.<br>10.14. **Istehlakçının** təqsirindən enerjitəchizatı müəssisəsinin başqa **istehlakçılarına** aşağı keyfiyyətli (bir və ya eyni zamanda bir neçə göstərici üzrə) elektrik enerjisi buraxıldıqda, təqsirkar **istehlakçı** buraxılmış aşağı keyfiyyətli elektrik enerjisinə və ya bununla əlaqədar dəymiş ziyana görə enerjitəchizatı müəssisəsi qarşısında sonuncunun başqa **istehlakçılara** ödədiyi ödəniş dəyərində maddi məsuliyyət daşıyır.<br>10.17. Enerjitəchizatı müəssisəsi sərəncamındakı elektrik qurğularının texniki vəziyyətinə, təhlükəsizlik texnikası qaydalarına əməl olunmasına və düzgün istismarına, elektrik enerjisindən səmərəli istifadəsinə, elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən edilmiş göstəricilərin və rejimlərin yerinə yetirilməsinə, satın alınmış elektrik enerjisi haqqının vaxtında ödənilməsinə, elektrik enerjisinin keyfiyyətinin təmin olunmasına və mövcud qaydalara uyğun olaraq operativ intizama riayət edilməsinə, həmçinin "Dövlət Enerjinəzarət" Idarəsinin səlahiyyətli nümayəndələrinin tələbnamələrini vaxtında icra olunmasına görə cavabdehlik daşıyır. | |
| **"Elektrik enerjisindən istifadə Qaydaları"na 2 nömrəli əlavə<br>Enerjitəchizatı müəssisəsi ilə qeyri-istehsal müəssisəsi, ticarət, ictimai iaşə və digər növ xidmət müəssisəsi (bundan sonra – abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli<br>M Ü Q A V İ L Ə S İ** | |
| Mövcud vəziyyət | Analiz |
| Müqavilənin 18-ci bəndində göstərilmişdir ki, "Enerjitəchizatı müəssisəsinin abonent qarşısındakı məsuliyyəti "Elektrik enerjisindən istifadə qaydaları"nın 10-cu fəslinə uyğun müəyyən edilir. | Qeyri-əhali və əhali qrupuna aid olunan abonentlərlə bağlanan birtipli müqavilələrinin müqayisəli təhlili göstərir ki, qeyri-əhali qrupuna aid olunan abonentlərlə bağlanan müqavilələrin 18-ci bəndində "Elektrik enerjisindən istifadə qaydaları"nın 10-cu fəslinə istinad olunsa da, əhali qrupuna aid olunan abonentlərlə bağlanan müqavilələrdə belə bir istinad yer almamışdır. (bax aşağıda) |
| **"Elektrik enerjisindən istifadə Qaydaları"na 4 nömrəli əlavə<br>Enerjitəjhizatı müəssisəsi ilə məişət abonenti (əhali) arasında elektrik enerjisinin alqı-satqısının birtipli<br>M Ü Q A V İ L Ə S İ** | |
| Mövcud vəziyyət | Analiz |

| | |
|---|---|
| Müqavilənin heç bir bəndində enerjitəchizatı müəssisəsinin əhali qrupuna aid olunan abonent qarşısındakı məsuliyyəti barədə bəhs olunmur. | “Enerjitəchizatı müəssisəsi ilə qeyri-istehsal müəssisəsi, ticarət, ictimai iaşə və digər növ xidmət müəssisəsi (bundan sonra – abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli müqaviləsinin” 18-ci bəndində göstərilmişdir ki, “Enerjitəchizatı müəssisəsinin abonent qarşısındakı məsuliyyəti “Elektrik enerjisindən istifadə qaydaları”nın 10-cu fəslinə uyğun müəyyən edilir.” Lakin “Enerjitəjhizatı müəssisəsi ilə məişət abonenti (əhali) arasında elektrik enerjisinin alqı-satqısının birtipli müqaviləsi”ndə “Elektrik enerjisindən istifadə qaydaları”nın 10-cu fəslinə istinad olunmamış və belə bir müddəa yer almamışdır. |
| “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Qanunun 8-ci maddəsində göstərilmişdir ki, istehsalçı və ya icraçı istehlakçı ilə işlərin icra edilməsi və xidmət göstərilməsi üçün **qeyri-bərabər şərt təklif etmədən müqavilə bağlamağa borcludur.** Bu halda o, öz istehsalat, yaxud digər təsərrüfat fəaliyyətini elə təşkil etməlidir ki, əhalinin ehtiyacları lazımi səviyyədə və fasiləsiz təmin edilsin.<br><br>“Bakıelektrikşəbəkə” ASC-nin mətbuat xidməti tərəfindən yayılan məlumatlara əsasən, qanunda tələb olunan şərtlər əsasına hər bir abonentlə müqavilə bağlanılır. Onun bir surəti abonentə verilir, digər surəti yerli şöbədə qalır. | ➢ Qanunun 8-ci maddəsindən belə anlaşılır ki, istehsalçı istehlakçı ilə müqavilə bağlayarkən qeyri-bərabər şərt təklif etməməlidir. Lakin qanunun bu tələbi pozulur. Belə ki, “Bakıelektrikşəbəkə” ASC əhali qrupuna aid olunan abonentlərlə müqavilə bağlayarkən qeyri-bərabər şərtlər irəli sürür, çünki həmin müqavilələrdə enerjitəchizat müəssisəsinin (yəni “Bakıelektrikşəbəkə” ASC-nin) abonent qarşısında hər hansı məsuliyyəti barədə bəhs olunmur.<br><br>➢ Qanunun 8-ci maddəsindən belə anlaşılır ki, istehsalçı istehlakçı ilə müqavilə bağlamağa borcludur. Hal-hazırda xidmət sahəsində yaşanan ən ciddi problemlərdən biri “Bakıelektrikşəbəkə” ASC kimi inhisarçı qurumların istehlakçılarla müqavilə bağlamaqdan yayınmasıdır və yalnız vətəndaş cəmiyyətinin uzun təzyiqindən sonra “Bakıelektrikşəbəkə” ASC müqavilə bağlamağa təzə başlayıb.<br><br>➢ Qanunun 8-ci maddəsindən belə anlaşılır ki, istehsalçı öz istehsalat fəaliyyətini elə təşkil etməlidir ki, əhalinin ehtiyacları lazımi səviyyədə və fasiləsiz təmin edilsin. Lakin hamımız şahidiyik ki, Bakı əhalisinin elektrik enerjisində ehtiyacları lazımi səviyyədə və fasiləsiz təmin edilmir, yəni burada da qanunun tələbinə istehsalçı tərəfindən əməl olunmur. |
| “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Qanunun 16-cı maddəsində göstərilmişdir ki, qanunvericilikdə nəzərdə tutulan hüquqlarla müqayisədə **istehlakçının hüquqlarını məhdudlaşdıran müqavilə şərtləri etibarsız** | ➢ “Bakıelektrikşəbəkə” ASC əhali qrupuna aid olunan abonentlərlə müqavilə bağlayarkən qeyri-bərabər şərtlər təklif edir. Buna görə də həmin müqavilə şərtləri istehlakçının hüquqlarını məhdudlaşdıran müqavilə şərtləri |

| | |
|---|---|
| **sayılır.** İstehlakçının hüquqlarını məhdudlaşdıran müqavilə şərtlərinin tətbiqi nəticəsində istehlakçıya zərər dəyibsə, onlar təqsirkar şəxs tərəfindən tam həcmdə ödənilməlidir. | kimi qəbul edilməlidir. Belə olan halda Qanunun 16-cı maddəsinin tələbinə görə ümumiyyətlə, həmin müqavilə etibarsız sayıla bilər.<br><br>➢ İstehlakçıların əhali qrupu ilə bağlanılan müqavilənin tərtibatından görünür ki, bu sənədə əsaslanaraq istehlakçıya zərər dəyibsə, onun tam həcmdə ödənilməsini istehsalçıdan məhkəmə qaydasında tələb etmək çətin olacaq. |
| *TÖVSIYƏ*<br>*Konstitusiya Araşdırmalar Fondu, Korrupsiyaya qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsi tərəfindən "Enerjitəchizatı müəssisəsi ilə məişət abonenti (əhali) arasında elektrik enerjisinin alqı-satqısının birtipli müqaviləsi"nin layihəsi hazırlanmış və "Bakıelektrikşəbəkə" ASC-yə təqdim olunmuşdur. Həmin müqavilə layihəsi təchizatçı-istehlakçı münasibətlərində onların qarşılıqlı hüquq və vəzifələrini kifayət qədər əks etdirir. Tövsiyə olunur ki, həmin müqavilə layihəsi "Bakıelektrikşəbəkə" ASC tərəfindən dəstəklənərək "Elektrik enerjisindən istifadə Qaydaları"na əlavə olunması ilə əlaqədar Nazirlər Kabineti qarşısında vəsatət qaldırılsın. Bundan başqa, tövsiyə olunur ki, hər iki qrup istehlakçı ilə müqavilələrin bağlanması vəziyyəti araşdırılıb müqavilələr bağlanılsın və digər müvaviq tədbirlər görülsün.* | |
| **"FİZİKİ VƏ HÜQUQİ ŞƏXSLƏRİN ENERJİ QƏBULEDİCİLƏRİNİN (ELEKTRİK QURĞULARININ) "BAKIELEKTRİKŞƏBƏKƏ" ASC-NİN VƏ ABONENTLƏRİN ELEKTRİK ŞƏBƏKƏLƏRİNƏ QOŞULMA QAYDALARI** | |
| Mövcud vəziyyət | Analiz |
| Qaydalar sifarişçinin enerji qəbuledicilərinin elektrik şəbəkəsinə qoşulması üçün aşağıdakı prosedurları təyin edir:<br>− sifarişçi tərəfindən məktubla (ərizə ilə) müraciət edilməsi və texniki şərtlərin hazırlanması;<br>− texniki şərtlər əsasında layihənin hazırlanması;<br>− layihənin "Bakıelektrikşəbəkə" ASC ilə razılaşdırılması;<br>− texniki şərtlərin icrası və onun icrasının yoxlanılması;<br>− "Bakıelektrikşəbəkə" ASC tərəfindən elektrik avadanlıqlarının sınaq olunması, rele mühafizəsinin yoxlanılması və sazlanması, sayğac komplektlərinin quraşdırılması;<br>− Sifarişçi tərəfindən müvafiq sənədlərin hazırlanması, "Dövlət Enerjinəzarət" İdarəsindən və "Bakıelektrikşəbəkə" ASC-dən elektrik qurğusuna istismara buraxılma aktlarının alınması;<br>− "Bakıelektrikşəbəkə" ASC tərəfindən sifarişçinin enerji qəbuledicilərinin elektrik şəbəkəsinə qoşulması və elektrik enerjisinin alqı-satqı müqaviləsinin bağlanması. | Göründüyü kimi, texniki şərtin alınması bir neçə mərhələdən ibarət, bir çox texniki sənədlərin tərtib olunmasını tələb edən mürəkkəb bir prosedurdur. Prosedurun mürəkkəb olması ona əməl edilməsini çətinləşdirir və bununla da sui-istifadə hallarına yol açır. Bu məsələ ilə əlaqədar qərarların qəbul edilməsi proseduru şəffaf deyil, texniki şərtin verilməsi ilə əlaqədar qəbul edilmiş qərarların tutarlı izahı verilmir, bəzi hallarda obyektin şəbəkəyə daha yaxın məsafədən qoşulması mümkün olduğu halda obyekt şəbəkəyə daha uzaq məsafədə yerləşən nöqtədən birləşdirilir. Bu da elektrik-quraşdırma işlərinin suni bahalaşdırılmasına gətirib çıxarır. |
| *TÖVSIYƏ*<br>1. *Texniki şərtlərin verilməsinin prosedur qaydaları mümkün qədər sadələşdirilməlidir;*<br>2. *Texniki şərtlərin verilməsi ilə əlaqədar qərarların qəbul edilməsi proseduru şəffaflaşdırılmalıdır;*<br>3. *Texniki şərtlərin verilməsi sahəsində "Vahid pəncərə" prinsipinin tətbiq olunması zəruridir.* | |

| İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR | |
|---|---|
| **İctimai rəyin öyrənilməsi** | |
| Mövcud vəziyyət | Analiz və tövsiyələr |
| Elektrik enerjisi ilə təminatı sahəsində mövcud olan problemlərə Bakı sakinlərinin münasibətini öyrənmək məqsədi ilə, “Bakıelektrikşəbəkə” ASC-nin sifarişi ilə “Rəy” Monitorinq Mərkəzi 2009-cu ilin fevralın 10-13-də Bakıda rəy sorğusu keçirmişdir. (bax: www.bes.az, “Böyük şəhərin işıqları” analitik-informasiya bülleteni, № 3, 2009-cu il). Qeyd olunmalıdır ki, həmin rəy sorğusu “Bakıelektrikşəbəkə” ASC tərəfindən bu günə kimi tərtib olunmuş və rəsmi saytında yerləşdirilmiş 5 bülletendən birində ictimaiyyətə təqdim olunan yeganə və, beləliklə də, sonuncu rəy sorğusudur. Əlimizdə başqa rəy sorğusu olmadığına görə, həmin sorğunun nəticələrindən faydalanmağa çalışacağıq. Sorğuda “üz-üzə” müsahibə metodu ilə 18 və yuxarı yaşda olan 700-dək respondentin rəyi öyrənilmişdir. | Bülleten müəllifləri əsassız olaraq hesab edirlər ki, rəy sorğusunun nəticələri gün ərzində abonentlərlə birbaşa təmas xətti olan Müştəri Xidmətləri Mərkəzinin və Qəza Xidmətinin işinin yüksək səviyyədə qurulduğunu, müraciət edən abonentlərin problemlərinin operativ şəkildə həll olunduğunu göstərir, respondentlər “Bakıelektrikşəbəkə”nin nəzarətçilərinin işi, davranışı, insanlarla rəftarı və hətta geyim tərzindən belə razıdırlar. Hesab etmək olar ki, “Bakıelektrikşəbəkə” ASC-nin fəaliyyətinə verilmiş qiymət şişirdilmiş və subyektiv xarakter daşıyır. Belə ki,<br>1. “Bakıelektrikşəbəkə” ASC-nin fəaliyyətinə 5 ballıq cədvəllə qiymət verən respondentlərin ümumi rəyi 3,8 bal olmuşdur. Bülletenin müəllifləri tərəfindən etiraf olunur ki, paytaxt əhalisinin 100% fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin olunmasından danışmağın hələ tez olması fonunda həmin göstərici “yüksək” (?) sayılmalıdır. Bülleten müəlliflərinin gəldikləri nəticə əsaslı görünmür və təəccüb doğurur.<br>2. Bülletenin müəllifləri Bakı sakinlərinin bir qisminin “Bakıelektrikşəbəkə” ASC-nin fəaliyyətindən “narazı olmasının” subyektiv və psixoloji səbəblərinin araşdırılması istiqamətində uğurlu sayılmayacaq cəhd göstəriblər. Ehtimal olunur ki, bülletenin müəllifləri, ən yaxşı halda, energetikdirlər, və rəy sorğusunun subyektiv və psixoloji aspektləri haqqında danışması üçün onlara sosiologiya və psixologiya elmləri sahəsində xüsusi biliklər tələb olunur. Bülleten müəllifləri “günah keçisi” axtarışına çıxaraq mübahisəli bir nəticəyə gəliblər ki, “Barmek”in yaratdığı mənfi rəy, neqativ assosiasiya qalmaqdadır və paytaxt sakinləri hazırkı vəziyyətə də məhz bu neqativ əhvalın təsiri altında qiymət veriblər.<br>3. Rəy sorğusu aparılarkən suallar ümumi şəkildə verilmişdir ki, “Bakıelektrikşəbəkə” ASC-nin əməkdaşları tərəfindən sui-istifadə və korrupsiya hallarına yol verilib-verilməməsini müəyyən etmək qeyri-mümkün görünür. Məsələn, “Bu qış mənzilinizdə işığın kəsilməsi halları olubmu?”, “Bəs ötən qış necə, belə hallar olubmu?”, “Sizcə son bir ildə “Bakıelektrikşəbəkə” yaxşı, yoxsa pis işləməyə başlayıb?” Hesab edirik ki, elektrik şəbəkəsi nə vaxt, harada və nə qədər baş vermiş işıq kəsilməsi halları barədə əhalidən daha yaxşı məlumatlı olmalı, bunun statistikasını avtomatlaşdırılmış şəkildə aparmalıdır və bu səbəbdən bu tip sualların rəy sorğusunda yer alması |

| | |
|---|---|
| | anlaşılan deyil. (Respondentlərin 70%-i "Bakıelektrikşəbəkə"nin işini yaxşı qiymətləndirmişlər.) Yuxarıdakı sualların cavablarını "Bakıelektrikşəbəkə" ASC-nin ixtiyarında olan məlumatlarla müqahisə etmək maraqlı olardı.<br>4. Həmçinin, "Bakıelektrikşəbəkə"yə borcunuz varmı?" sualının rəy sorğusunda yer almasının məqsədi aydın deyil. Elektrik şəbəkəsi ona kimin və nə qədər borclu olmasını hamıdan yaxşı bildiyi halda bu cür sualların verilməsinin praktik əhəmiyyəti qaranlıq olaraq qalır. (Respondentlərin 90%-i istifadə etdiyi elektrik enerjisinə görə "Bakıelektrikşəbəkə" qarşısında hər hansı borcun olmamasını göstərmişlər). Həmin sualın cavablarını "Bakıelektrikşəbəkə" ASC-nin ixtiyarında olan məlumatlarla müqahisə etmək maraqlı olardı.<br>5. "Bakıelektrikşəbəkə"yə konkret iradlarınız varmı?" sualından məntiqi olaraq belə sual doğur ki, "Nə kimi iradlarınız var?" (sualın cavabında bir neçə səciyyəvi iradları göstərib respondentə onların arasından seçmə imkanı verərək sonradan sualın cavablarını qruplaşdırıb təhlil etmək olardı). Lakin bu cür sual verilməmişdir. Respondentlərin 66 %-i "Bakıelektrikşəbəkə"nin ünvanına konkret iradlarının olmamasını göstərmişlər. Beləliklə, respondentlərin 34 %-nin (yəni üç nəfərdən birinin) "Bakıelektrikşəbəkə"nin ünvanına konkret iradlarının olması müəyyən olunduğu halda, həmin iradların nədən ibarət olması bəlli olmamışdır.<br>6. "Mübahisəli məsələlərin həlli ilə bağlı "Bakıelektrikşəbəkə"yə müraciət etməli olmusunuzmu?", "Mübahisələrin həlli Sizi qane edirmi?" sualları nisbətən uğurlu hesab etmək olar. Belə ki, respondentlərin böyük əksəriyyəti – 88,7 %-i hər hansı mübahisəli məsələlərlə bağlı bir dəfə də olsun "Bakıelektrikşəbəkə"yə müraciət etməmiş, müraciət edən azsaylı respondentlərin (11 %) böyük əksəriyyəti – 66,7 %-i "Bakıelektrikşəbəkə"yə müraciətdən sonra mübahisəli məsələlərin həll olunduğunu bildiriblər. Burada bilmək maraqlı olardı ki, abonentlər konkret hansı problemlərlə üzləşirlər. |

*TÖVSIYƏ*

1. *Tövsiyə olunur ki, bu cür rəy sorğuları mütəmadi olaraq (ildə bir dəfədən az olmamaq şərti ilə) və respondentlərin daha geniş dairəsini əhatə edəcək şəkildə keçirilsin, bu vaxt internet resurslarından daha səmərəli istifadə edilsin, suallar daha konkret şəkildə verilsin, rəy sorğusunun keçirilməsinə ekspert-mütəxəssislər və qeyri-hökümət təşkilatlarının nümayəndələri cəlb edilsinlər.*
2. *Həmçinin, radionun FM dalğalarında kommunal xidmətləri (o cümlədən, elektrik enerjisi təchizatı) sahəsində mövcud olan vəziyyətlə əlaqədar əhali arasında ekspress rəy sorğuları keçirəcək, əhalinin üzləşdiyi kommunal problemlərdən bəhs edəcək verilişin açılması məqsədəmüvafiq hesab olunur.*

| KONKRET HÜQUQPOZUNTULARI | |
|---|---|
| Mövcud vəziyyət | Analiz |
| APA-ECONOMICS informasiya agentliyinin 14 aprel 2011-ci il tarixli məlumatına görə, Azərbaycan Hesablama Palatası tərəfindən dövlət büdcəsindən dövlət əsaslı vəsait qoyuluşu üzrə "Bakıelektrikşəbəkə" ASC-yə paylayıcı elektrik şəbəkələrinin yenidən qurulmasına ayrılan vəsaitlərin istifadəsi üzrə audit keçirilib, keçirilən audit nəticəsində ASC tərəfindən obyektlərin layihə-smeta sənədlərinin hazırlanması və dövlət büdcəsi vəsaiti hesabına keçirilən satınalmalar zamanı bir sıra qanun pozuntusu halları aşkar edilib.<br>Hesablama Palatasının Kollegiyası auditin nəticələrini müzakirə edərək, "Bakıelektrikşəbəkə" ASC tərəfindən dövlət əmlakından və dövlət maliyyə resurslarından məhsuldar istifadə olunması, vəsaitlərdən istifadənin səmərəliliyinin yüksəldilməsi və şəffaflığın daha da artırılması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi, audit aktında qeyd olunan nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsi və görülmüş tədbirlər barədə Hesablama Palatasına məlumatın təqdim edilməsi barədə qərar qəbul edib. Kollegiya qərarına əsasən, aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədi ilə "Bakıelektrikşəbəkə" ASC-yə təqdimat göndərilib.<br>Hesablama Palatasının yuxarıda göstərilən hesabatı və təqdimatı ilə əlaqədar "Bakıelektrikşəbəkə" ASC tərəfindən bu günə kimi hər hansı rəsmi açıqlama verilməmişdir. | Göründüyü kimi, "Bakıelektrikşəbəkə" ASC-də dövlət büdcəsi vəsaiti hesabına keçirilən satınalmalar zamanı ciddi prosedur pozuntularına yol verilir ki, bu da öz növbəsində korrupsiya hüquqpozmaları üçün münbit şərait yarada bilər. Eyni zamanda, ASC-də dövlət büdcəsi vəsaiti hesabına keçirilən satınalmalar zamanı aşkar edilən nöqsanlar "Bakıelektrikşəbəkə" ASC-nin fəaliyyətinə ictimai nəzarətin zəifliyindən xəbər verir. |
| Təchizatçı istehlakçını keyfiyyətli elektrik enerjisi ilə təmin etmir, məsələn:<br>➢ magistral elektrik xəttlərində gərginlik sıçrayışları baş verir,<br>➢ enerji təchizatı bir və ya bir neçə göstərici üzrə aşağı keyfiyyətlə verilir,<br>➢ xidmətin keyfiyyətsizliyi nəticəsində istehlakçıların məişət elektrik cihazları sıradan çıxır. | "Elektrik enerjisindən istifadə Qaydaları"nın 10.7-ci maddəsinə görə, enerjitəchizatı müəssisəsi balans mənsubiyyəti sərhədində və şəbəkəsində elektrik enerjisinin keyfiyyət göstəricilərini qüvvədə olan standartların tələblərinə uyğun saxlamağa borcludur. Lakin Qaydaların bu tələbi pozulur. Belə ki, gərginliyin 220 voltdan aşaqı olması və birdən ya çox aşağı düşməsi, yaxud yuxarı qalxması, istehlakçılarının elektrik cihazlarının sıradan çıxmasına səbəb olur. Gərginliyin qeyri-sabitliyi nəticəsində sıradan çıxmış məişət avadanlığına görə isə heç kim məsuliyyət daşımır. |
| Təchizatçı istehlakçını elektrik sayğacı ilə ödənişli təmin edir | "Elektrik enerjisindən istifadə Qaydaları"nın 7.9-cu maddəsinə görə, fiziki şəxs olan istehlakçıların sayğaclarla təchiz edilməsi, onların quraşdırılması və dəyişdirilməsi enerji təchizatı müəssisəsinin hesabına həyata keçirilir. Lakin Qaydaların bu tələbinə məhəl qoyulmur, sayğac quraşdırılarkən əhalidən pul tələb edilir. |

| | |
|---|---|
| Bilavasitə istehlakçılarla təmasda olan nəzarətçi mühəndislərin öz vəzifə səlahiyyətlərindən sui istifadə etmə halları: | |
| ➢ Yaşayış binalarının girişində, yaxud pilləkən meydançalarında quraşdırılmış mənzillər üzrə hesablaşma elektrik sayğaclarına müdaxilələrə görə təchizatçının vəzifəli şəxsləri tərəfindən məişət abonentlərinin günahlandırılması, hətta sayğaca həmin əməkdaşlar tərəfindən qərəzli müdaxilə və həqiqətə uyğun olmayan qusur aktların qərəzli tərtibatı | "Elektrik enerjisindən istifadə Qaydaları"nın 7.11-ci maddəsinə görə, yaşayış binalarının girişində, yaxud pilləkən meydançalarında quraşdırılmış mənzillər üzrə hesablaşma elektrik sayğaclarının, o cümlədən üzərindəki plombların qorunmasına və işçi vəziyyətdə saxlanılmasına görə enerjitəchizatı müəssisəsi cavabdehlik daşıyır.<br>"Elektrik enerjisindən istifadə Qaydaları"nın 8.32-ci maddəsinə görə, mənzillər üzrə hesablaşma elektrik sayğacı yaşayış binasının girişində, yaxud pilləkən meydançasında quraşdırılmış məişət abonentləri həmin elektrik sayğaclarının qoşulma sxeminin dəyişdirilməsi, sayğacın baxış şüşəsinin sındırılması, plombunun qırılması, sayğacın diskinin süni şəkildə dayandırılması və elektrik enerjisindən istifadə göstərişini azaltmaq məqsədi ilə edilmiş digər pozuntulara görə heç bir məsuliyyət daşımırlar. Buna baxmayaraq, bəzi nəzarətçilər bu cür sayğaclara edilmiş müdaxilələrdə belə hallarda heç bir məsuliyyət daşımayan məişət abonentlərini qərəzli günahlandırır və əsassız olaraq müvafiq aktlar tərtib edirlər. |
| ➢ Qüsur aktlarının prosedur pozuntularla tərtib olunması | "Elektrik enerjisindən istifadə Qaydaları"nın 8.33-cü maddəsinə görə, məişət abonenti tərəfindən elektrik enerjisindən istifadədə pozuntuya yol verildiyi aşkar edildikdə, enerjitəchizatı müəssisəsinin nümayəndəsi onun və iki nəfər hal şahidinin iştirakı ilə akt tərtib edir və aktın bir nüsxəsini məişət abonentinə verir. Akt enerjitəchizatı müəssisəsinin nümayəndəsi, məişət abonenti və iki nəfər hal şahidi tərəfindən imzalanmalıdır. Məişət abonenti aktı imzalamaqdan imtina etdikdə bu barədə aktda müvafiq qeyd aparılır. Məişət abonenti izahatlar və aktın məzmunu barəsində öz mülahizələrini təqdim etmək, habelə aktı imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüququna malikdir, bu izahatlar və mülahizələr akta əlavə olunur.<br>Vəzifəli şəxslər tərəfindən "Elektrik enerjisindən istifadə Qaydaları"nın 8.33-cü maddəsinin tələbləri ciddi şəkildə pozulur, akt məişət abonentinə və hal şahidlərinə imzalatdırılmır, məişət abonentinin izahatı alınmır və s. |
| ➢ Sayğacların ekspertiza keçirilməsi lazım qəldiyi hallarda həmin ekspertizaların enerjitəchizat müəssisəsi tərəfindən qeyri-şəffaf şəraitdə keçirilməsi | Sayğacların ekspertizasının müstəqil şəkildə, enerjitəchizat müəssisəsinin hər hansı təsiri olmadığı şəraitdə keçirilmir. |
| ➢ İstehlakçılara abunə haqqında məlumat vərəqinin verilməməsi, | www.navigator.az saytında elektrik enerjisinə görə borc haqqında məlumat əldə etmək olar, lakin |

| | |
|---|---|
| ➢ İstehlakçılara verilən bildirişlərdə sayğacın son və ilk göstəricilərinin aylar üzrə uyğun gəlməməsi,<br>➢ Istehlakçıların təqsiri olmadan onlar üçün itirilmiş enerjiyə görə əlavə borcların hesablanması. | həyata keçirilmiş ödənişlər barədə məlumat (hesabdan çıxarış) almaq mümkün deyil. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” qanunun 13-cü maddəsinin 1-ci hissəsində göstərilmişdir ki, satıcı (icraçı) istehlakçını maraqlandıran malın (işin, xidmətin) qiyməti, istehlak xassələri, əldə edilməsi şərtləri, təminat öhdəlikləri və iddiaların irəli sürülməsi, malın işlədilməsi, saxlanılması və təhlükəsiz istifadəsi üsulları və qaydaları barəsində istehlakçıya zəruri və düzgün məlumat verməlidir. Beləliklə, qanunun bu tələbi pozularaq təchizatçının istehlakçıya borcu və istehlakçının aparmış olduğu ödənişlər barədə dolğun məlumat verilmir. Yəni istehlakçıda özünün kredit tarixi barədə təfsilatı ilə məlumatı olmur. Belə vəziyyət əsas borcun əlavə ödənişlə əlaqədər sənədləşməsində şəffaflığın olmamasına səbəb olur. |
| Enerjitəchizatı müəssisəsi tərəfindən balans mənsubiyyətinə məhəl qoyulmaması | “Elektrik enerjisindən istifadə Qaydaları”nın 5-ci maddəsinə görə, yaşayış binalarının, yaxud xüsusi yaşayış evlərinin mülkiyyətçilərinə, idarələr və başqa qeyri-istehsalat istehlakçılarına məxsus olan binalarda, həmçinin məişət abonentlərinin mənzillərində balans mənsubiyyəti sərhədindəki birləşmələrin texniki vəziyyətinə görə məsuliyyət enerjitəchizatı müəssisəsinin üzərinə düşür.<br>Lakin təcrübədə enerjitəchizatı müəssisəsi tərəfindən balans mənsubiyyətinə məhəl qoyulmur, yəni abonentin balans mənsubiyyəti sərhədindən kənar xətlərin və qurğuların texniki vəziyyətinə görə enerjitəchizatı müəssisəsi məsuliyyət daşıdığı halda bu tələb pozulur. |

*TÖVSİYƏ*

1. *“Bakıelektrikşəbəkə” ASC mütəmadi olaraq (ildə bir dəfə) audit olunmalı və auditin nəticələri KİV vasitəsilə ictimaiyyətə çatdırılmalı, dövlət qurumları, qeyri-hökümət təşkilatları və KİV nümayəndələrinin iştirakı ilə geniş şəkildə müzakirə olunmalıdır.*
2. *“Bakıelektrikşəbəkə” ASC abunəçilərlə münasibətlərdə tezliklə Smart-card sisteminə keçməlidir.*
3. *“Bakıelektrikşəbəkə” ASC-nin əhali qrupuna aid istehlakçılara göstərilən xidmətlər sahəsində inhisarına son qoyulmalı, bu sahədə yeni enerjitəchizat müəssisələri (iki-üç) yaradılmalıdır ki, bu sahədə sağlam rəqabət olsun və bu da son nəticədə əhaliyə göstərilən xidmətin keyfiyyətinə müsbət təsir etsin.*
4. *www.bes.az saytında abunə haqqında məlumatın, əlavə borcun açıqlanmasının (icra vərəqinin), sayğac ekspertizasının rəy protokolunun yerləşdirilməsi təmin edilsin.*
5. *QHT, vətəndaş cəmiyyəti üzvlərinin Abonent Etirazları üzrə Komissiyanın fəaliyyətində tamsəlahiyyətli şəkildə iştirakı təmin olusun.*

**İSTEHLAKÇILAR TƏRƏFİNDƏN YOL VERİLƏN POZUNTULAR**

| Mövcud vəziyyət | Analiz |
|---|---|
| Müxtəlif hüquqi və fiziki şəxslər tərəfindən elektrik enerjisindən qanunsuz istifadə və talama halları:<br>➢ sayğaclara müdaxilə,<br>➢ nəzarət-ölçü cihazlarından kənar istifadə etmək yolu ilə | Əvvəlki dövrdə qüvvədə olan qanunvericilik qeyd edilən hüquqpozmaların törədilməsinə görə yalnız inzibati məsuliyyət müəyyən etməklə, bu hüquqpozmaların ictimai təhlükəliliyinə cavab verən repressiv mexanizmi nəzərdə tutmurdu. Eyni zamanda, bu inzibati xəta növünə görə inzibati icraata başlamalı olan orqanın səlahiyyətlərinin |

| | |
|---|---|
| | qeyri-müəyyən olaraq qalması, enerjidən qanunsuz istifadə halları ilə mübarizəni səmərəsiz edirdi.<br>Qeyd edilən hallar xeyli miqdarda təbii qazın, elektrik və ya istilik enerjisinin talanması əməllərinin qanunvericiliyimizdə cinayət əməli kimi təsbit edilməsini, bu enerji növlərinin az miqdarda talanmasına görə isə inzibati məsuliyyətin sərtləşdirilməsini zəruri etmişdir.<br>Beləliklə, beynəlxalq təcrübə də nəzərə alınmaqla təbii qazın, elektrik enerjisinin talanması əməlini kriminallaşdırmaq, qeyd edilən enerji növlərinin az miqdarda talanmasına görə inzibati məsuliyyəti sərtləşdirilmək məqsədilə “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında” 19 dekabr 2006-cı il tarixli Azərbaycan Respublikası Qanunu (daha sonra Qanun) qəbul edilmişdir.<br>Qanunla Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin mülkiyyət əleyhinə olan cinayətlər fəslinə yeni – **“189-1 – Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması”** maddəsi əlavə edilməklə cinayət qanunvericiliyimizdə bir sıra əməllər cinayət kimi təsbit edilmişdir.<br>Həmin cinayətlərin obyekti xüsusi icazə əsasında əhalinin və digər istehlakçıların təbii qaz, elektrik və ya istilik enerjisi ilə təchizatına təminat verən hüquqi şəxslərlə müxtəlif istehlakçılar arasında verilmiş təbii qaz, elektrik və ya istilik enerjisinə görə yaranan və qanunla qorunan mülkiyyət münasibətləridir.<br>CM-nin 189-1.1-ci maddəsilə nəzərdə tutulmuş cinayətin obyektiv tərəfi təbii qaz, elektrik və ya istilik şəbəkələrinə qanunsuz qoşulmaqla bu enerji resurslarının xeyli miqdarda ziyan vurmaqla talanmasından ibarətdir.<br>Elektrik enerjisindən qanunsuz istifadə etmə əməlləri o halda cinayət məsuliyyəti yaradır ki, belə əməllər özündə talamanın əlamətlərini əks etdirsin. Təcrübədə bu əsasən verilmiş elektrik enerjisinin nəzarət ölçü cihazlarına, sayğaclara müdaxilə etmək yolu ilə onların göstəricilərinin süni şəkildə azaldılmaqla təhrif edilməsi və ya ümumiyyətlə, nəzarət ölçü cihazları, sayğaclar olmadan, gizli yolla, müvafiq qurumların nəzarətindən kənar çəkilmiş xəttlər və naqillər vasitəsilə enerji resurslarından istifadə yolu ilə törədilir.<br>Eyni zamanda, şərh edilən maddə ilə cinayət məsuliyyətinin yaranması üçün törədilən əməllə enerji resursları ilə təchizat subyektlərinə xeyli miqdarda ziyan vurulması zəruridir. Xeyli |

| | |
|---|---|
| | miqdarda ziyanın anlayışı isə CM-nin 177-ci maddəsinin “Qeyd” hissəsində verilmişdir.[2] CM-nin 189-1.2-ci maddəsi eyni əməllərin külli miqdarda ziyan vurmaqla törədilməsini tövsifedici əlamət kimi nəzərdə tutur.<br>Dövlətimizin müstəqillik əldə etdiyi ilk illərdə keçid dövrünün problemləri, işsizlik, sosial yükün və yoxsulluğun artması onunla nəticələnmişdir ki, həmin vaxtlardan başlayaraq təbii qaz, elektrik enerjisinin talanması halları əhali arasında geniş vüsət almışdır. Bu səbəbdən, həmçinin cinayət qanunvericiliyimizin humanizm prinsiplərinə əsaslanaraq, qanunverici maddənin “Qeyd” hissəsində CM-nin 189-1.3, 189-1.4-cü maddələrilə nəzərdə tutulmuş əməlləri ilk dəfə törətmiş şəxsin cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad olunması barədə müddəanı nəzərdə tutmuşdur. Bu müddəa, həmçinin stimullaşdırıcı xarakter daşımaqla, hüquqpozucularını vurduqları ziyanı tamamilə ödəməyə həvəsləndirir.<br>CM-nin 189-1.3, 189-1.4-cü maddələri təbii qaz, elektrik və ya istilik enerjisi təchizatı müəssisələrinin vəzifəli şəxsi olmayan səlahiyyətli nümayəndəsinin CM-nin 189-1.1 və 189-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin qarşısının almaması ilə bağlı cinayət əməllərini nəzərdə tutur. Qeyd edilən cinayətlərin subyekti və nəticələri eyni olsa da, həmin cinayət tərkibləri təqsirin formasına görə fərqlənir.<br>Belə ki, CM-nin 189-1.3-cü maddəsilə nəzərdə tutulmuş cinayət təbii qaz, elektrik və ya istilik enerjisi təchizatı müəssisələrinin vəzifəli şəxsi olmayan səlahiyyətli nümayəndəsinin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində, yəni ehtiyatsızlıqdan törədilir.<br>CM-nin 189-1.3-cü maddəsilə nəzərdə tutulmuş cinayət isə qeyd edilən şəxslər tərəfindən xidməti mövqeyindən sui-istifadə etməklə tamah və ya sair şəxsi marağı üzündən, yəni qəsdən törədilir. Bu zaman təqsirkar qulluq səlahiyyətlərindən qulluq mövqeyinə zidd olaraq istifadə etdiyini dərk edir, bunun enerji təchizatı müəssisəsinin mənafelərinə mühüm zərər vurma ilə ifadə olunan nəticələrini (enerji resurslarının talanmasını) qabaqcadan görür, bu nəticələrin baş verməsini arzu edir. Bu cinayətin tərkibinin daha bir zəruri elementi həmin cinayətin motividir. Şərh edilən maddədə bu tamah və ya sair şəxsi maraq kimi müəyyən edilmişdir.<br>CM-nin 189-1.1-ci maddəsilə nəzərdə tutulmuş |

[2] CM-nin 177-187, 189 və 189-1-ci maddələrində “xeyli miqdar” dedikdə, min manatdan yeddi min manatadək olan məbləğ, “külli miqdar” dedikdə isə yeddi min manatdan artıq olan məbləq başa düşülür.

| | |
|---|---|
| | cinayətin subyekti ümumidir. Bu cinayətin subyekti qismində enerji resurslarının təchizatı müəssisəsilə müqavilə bağlanıb-bağlanılmamasından asılı olmayaraq bütün şəxslər ola bilər.<br>CM-nin 189-1.3, 189-1.4-cü maddələrilə nəzərdə tutulmuş cinayətlərin subyekti xüsusidir. Bu cinayətlərin subyekti qismində əmək vəzifələrinə enerji, təbii qaz xəttlərinə, naqillərinə qanunsuz müdaxilələri, qoşulmaları aşkar etmək, qarşısını almaq vəzifələri daxil olduğu təbii qaz, elektrik və ya istilik enerjisi təchizatı müəssisəsinin vəzifəli şəxs olmayan səlahiyyətli nümayəndələri ola bilər.<br>Həmin şəxslərin sırasına rayon paylayıcı elektrik şəbəkələrinin, qaz istismarı idarələrinin müfəttişlərini, sahə ustalarını, elektrik montyorlarını və digər işçiləri aid etmək olar. Bu və ya digər işçinin şərh edilən cinayətin subyektləri dairəsinə aid olub-olmamasını müəyyən etmək üçün ilk növbədə paylayıcı elektrik şəbəkələrində, qaz istismarı idarələrində qüvvədə olan müvafiq vəzifə təlimatlarında həmin şəxslərin əmək vəzifələrinə enerji, təbii qaz xəttlərinə, naqillərinə qanunsuz müdaxilələri, qoşulmaları aşkar etmək, qarşısını almaq vəzifəsinin daxil edilib-edilmədiyi yoxlanılmalıdır.<br>Qeyd edilən müəssisələrin vəzifəli şəxsləri törətdikləri eyni əməllərə görə Azərbaycan Respublikası CM-nin 33-cü fəslində nəzərdə tutulmuş müvafiq maddələrlə məsuliyyət daşıyırlar.<br>19 dekabr 2006-cı il tarixli Qanunla Azərbaycan Respublikası CM-nin 189-1-ci maddəsilə nəzərdə tutulmuş cinayətlərin istintaq aidiyyəti prokurorluq orqanlarına aid edilmişdir.<br>Qeyd edildiyi kimi, Qanunla həmçinin təbii qazın, elektrik və ya istilik enerjisinin az miqdarda talanması və ya onlardan məişətdə istifadə qaydalarının pozulmasına görə inzibati məsuliyyəti sərtləşdirilmək məqsədilə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 101.2 və 118-ci maddələrinə müvafiq əlavə və dəyişikliklər edilmişdir.<br>Bu tip neqativ halların aşkar olunması məqsədilə “Bakıelektrikşəbəkə” ASC tərəfindən xüsusi balans sayğacları quraşdırılır ki, təchizatçı onların göstəricilərini bir neçə anonentin sayğaclarının toplam göstəriciləri ilə müqayisə etdikdə aradakı fərqi və, beləliklə də, elektrik enerjisindən qanunsuz istifadə və talama hallarını üzə çıxarmağa müvəffəq olur. |

*TÖVSIYƏ*

*Müxtəlif hüquqi və fiziki şəxslər tərəfindən elektrik enerjisindən qanunsuz istifadə və talama hallarına qarşı mübarizə sərtləşdirilməlidir*

**TEXNİKİ TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ**

<table>
<tr><th>Mövcud vəziyyət</th><th>Analiz</th></tr>
<tr><td>Ümumiyyətlə, istər sayğac quraşdırılanda, istərsə də yeni xətlər çəkiləndə “Bakıelektrikşəbəkə” ASC-nin işçiləri tərəfindən təhlükəsizlik qaydaları kobud şəkildə pozulur</td><td>Bir çox hallarda istər şəxsi evlər, istərsə də hər hansı obyektlər yüksəkgərginlikli xətlərin altında yerləşməsinə baxmayaraq, onlar haqqında hər hansı bir tədbir görülmür. Bundan başqa, transformatorlardan şəxsi evlərə xətlər çəkilərkən kabellər lazımınca izolyasiya olunmur.</td></tr>
<tr><td colspan="2">TÖVSIYƏ<br>Fövqəladə Hallar Nazirliyində elektrik enerjisi ilə təchizatı sahəsində təhlükəsizlik məsələrinə nəzarət edən xüsusi şöbənin yaradılması məsələsinə baxılması məqsədəmüvafiqdir.</td></tr>
<tr><td colspan="2">QABAQLAYICI TƏDBİRLƏR</td></tr>
<tr><td>Mövcud vəziyyət</td><td>Analiz</td></tr>
<tr><td>Günahkar vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb olunmaması</td><td>Razılaşma yolu ilə və hətta məhkəmə qaydasında silinmiş borcların əsassız hesablanmasında günahkar olan vəzifəli şəxslərə qarşı qanunamüvafiq sanksiyalar tətbiq olunmur.</td></tr>
<tr><td>“Bakıelektrikşəbəkə” ASC-də Müştəri Xidmətləri fəaliyyət göstərir. Müştəri Xidmətlərindən həftənin 7 günü saat 8.30-21.00 arasında fasiləsiz xidmət almaq, elektron şəkildə xidmət göstərəcək MXM-də suallara dərhal cavab tapmaq, hesab və bildiriş problemlərini həll etmək, arayış sənədini dərhal əldə etmək, elektrik enerjisi borcunu ödəmək mümkündür.</td><td>Lakin “Bakıelektrikşəbəkə” ASC-də neqativ hallardan, konkret vəzifəli şəxslərin qeyri-qanuni hərəkətlərindən şikayət ediləcək “Qaynar xətt” fəaliyyət göstərmir.</td></tr>
<tr><td colspan="2">TÖVSIYƏ<br>“Bakıelektrikşəbəkə” ASC-nin nəzdində “Qaynar xətt” xidmətinin yaradılması, ora daxil olmuş şikayətlərin sayı, xarakteri, görülmüş tədbirlər, o cümlədən günahkar vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb olunması, hansı inzibati tənbeh tədbirlərinə məruz qalması haqqında ictimaiyyətin məlumatlandırılması məqsədəmüvafiqdir.</td></tr>
</table>

**“Elektrik enerjisindən istifadə Qaydaları”na 2 nömrəli əlavə**

**Enerjitəchizatı müəssisəsi ilə qeyri-istehsal müəssisəsi, ticarət, ictimai iaşə və digər növ xidmət müəssisəsi (bundan sonra – abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli**
**M Ü Q A V I L Ə S I**

Biz aşağıda imza edənlər enerjitəchizatı müəssisəsi adından (vəzifəsi) şəxsində və (soyadı, adı, atasının adı) abonent adından şəxsində tərəflər (vəzifəsi, soyadı, adı, atasının adı) arasında elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanılır.

**Müqavilənin şərtləri**

**1.** Tərəflər elektrik enerjisinin alqı-satqısı və istehlakı ilə əlaqədar qarşılıqlı münasibətlərdə “Elektrik enerjisindən istifadə Qaydaları”nı rəhbər tuturlar.
**2.** Abonentə illik buraxılacaq elektrik enerjisinin təxmini miqdarı ( ) kVts və dəyəri ( ) manat subabonentlər daxil olmaqla abonentə illik buraxılacaq elektrik enerjisinin təxmini miqdarı ( ) kVts və dəyəri ( ) manat (subabonentlər haqqında məlumatlar bu müqaviləyə əlavə edilir).
**3.** Istifadəsinə icazə verilmiş (qoşulmuş) transformatorların gücü ( ) kVA.
**4.** ( ) kV gərginlikli tərəfdə qoşulmuş elektrik qəbuledicilərin gücü ( ) kVt.
**5.** Abonentin elektrik qurğularının etibarlılıq kateqoriyası ( ).
**6.** Enerjitəchizatı müəssisəsi ilə abonent arasında elektrik şəbəkəsinin balans mənsubiyyəti sərhədi və tərəflərin istismar məsuliyyəti bu müqaviləyə əlavə olunmuş aktla müəyyən edilir.
**7.** Enerjitəchizatı müəssisəsi bu müqavilə ilə müəyyənləşdirilmiş elektrik enerjisinin göstəricilərinə uyğun olaraq abonenti elektrik enerjisi ilə təchiz edir.
**8.** Hesablaşma elektrik sayğacları: ( ) kV gərginlik tərəfində (elektrik qurğusunun adı, sayğac quraşdırıldığı yuvanın nömrəsi).
**9.** Elektrik enerjisinə görə hesablaşmalar yalnız tərəflərin elektrik şəbəkələrinin balans mənsubiyyəti sərhədində quraşdırılmış hesablaşma elektrik sayğaclarının göstərişinə əsasən aparılır (ölçü transformatorları vasitəsilə ölçü aparıldıqda onların əmsalı nəzərə alınmaqla).
Abonentin baş transformatoru enerjitəchizatı müəssisəsinin elektrik veriliş xəttinə (EVX) bilavasitə qoşulduqda və hesablaşma elektrik sayğacı baş transformatordan sonra orta (alçaq) gərginlik tərəfində quraşdırıldıqda, abonentlə hesablaşmalarda hər 1 kVt saat elektrik enerjisinə görə ödəniş müvafiq olaraq, ikidolaqlı transformatorlar üçün 1,03 və üçdolaqlı transformatorlar üçün 1,05 yüksəldici əmsala vurulmalıdır, bu halda balans mənsubiyyəti sərhədindən hesablaşma elektrik sayğacı quraşdırılmış yerə qədər elektrik enerjisi itkisi (texnoloji sərfiyyat) hesabat yolu ilə ( ) kVts (hesablaşma dövrü üçün) müəyyən edilir, həmin elektrik enerjisi itkisinə görə abonentdən əlavə ödəniş tutulmur və o abonentə buraxılmış elektrik enerjisi ilə cəmlənir.
Hesablaşma elektrik sayğacları tərəflərin elektrik şəbəkələrinin balans mənsubiyyəti sərhədində quraşdırılmadıqda, hesablaşma elektrik sayğacı quraşdırıldığı yerdən şəbəkənin balans mənsubiyyəti sərhədinə qədər elektrik enerjisi itkisi (texnoloji sərfiyyat) hesabat yolu ilə ( ) kVts (hesablaşma dövrü üçün) müəyyən edilir və həmin elektrik enerjisi itkisi hesablaşma elektrik sayğacının göstərişinə əlavə edilir (yaxud çıxılır).
**10.** Elektrik enerjisinə görə hesablaşmalar ( ) istehlakçı qrupu üçün müəyyən edilmiş 1 kVts aktiv elektrik enerjisi ( ) manat + (ƏDV) = ( ) manat tarif üzrə aparılır. Tarif qiymətləri tənzimləndikdə bu müqavilədə müvafiq dəyişikliklər edilir.
**11.** Elektrik enerjisinə görə hesablaşma dövrü 1 ay qəbul olunur.
Enerjitəchizatı müəssisəsi hesablaşma dövründə abonentə buraxılmış elektrik enerjisinə görə ödəniş sənədini növbəti hesabat dövrünün (ayının) _____ dək abonentə təqdim edir, sonrakı bir ay müddətində hesablaşma dövründəki elektrik enerjisinin haqqı abonent tərəfindən ödənilir.
**12.** Tərəflər arasında elektrik enerjisinə görə hesablaşma aparılması üçün nəzərdə tutulmuş hesablaşma elektrik sayğaclarının alınması, quraşdırılması, istismara qəbul edilməsi, standartların müəyyən etdiyi müddətlərdə plan üzrə dəyişdirilməsi və istismarı “Elektrik enerjisindən istifadə Qaydaları”nın 7.6-cı bəndinə uyğun həyata keçirilir.

Hesablaşma elektrik sayğaclarının qorunmasına və işçi vəziyyətdə saxlanılmasına görə cavabdehlik onların quraşdırıldığı elektrik qurğusunun mülkiyyətçisinin ( ) üzərinə düşür.

**13.** Enerjitəchizatı müəssisəsinin elektrik şəbəkələrində təmir işlərinin aparılması ilə əlaqədar ehtiyat qida mənbəyi olmayan abonentin şəbəkədən açılması sayı və müddətləri (say və müddəti).

**14. "**Elektrik enerjisindən istifadə Qaydaları"nın 4.1-ci bəndinə və müvafiq təlimata uyğun olaraq tərəflərin birgə hazırladığı enerjisistemdə güc, elektrik enerjisi çatışmazlığı ilə əlaqədar məhdudiyyət və birbaşa açılma qrafiklərinə əməl olunması abonent tərəfindən təmin olunur.

Qəzaların qarşısının alınması və ya ləğv edilməsi üçün enerjitəchizatı müəssisəsi istehlakçının (açılması insan həyatı üçün təhlükə yaradan, partlayışa, yanğına, məhsulun kütləvi zay olmasına, mürəkkəb texnoloji proseslərin pozulmasına və s. səbəb ola bilən elektrik qurğuları istisna olmaqla) elektrik qurğularını elektrik şəbəkəsindən açmaq hüququna malikdir.

**15.** Abonent tutduğu ərazidən, binadan köçdükdə, öz fəaliyyətini dayandırdıqda və ya ləğv edildikdə, o on gün əvvəl enerjitəchizatı müəssisəsinə elektrik enerjisinin alqı-satqı müqaviləsinin ləğv olunması barədə müraciət etməli və sonuncu günə qədər istifadə etdiyi elektrik enerjisinin haqqını ödəməlidir.

**16.** Abonent elektrik enerjisinin alqı-satqı müqaviləsindəki enerji göstəricilərini artırmaq və ya azaltmaq istədikdə, o bu barədə enerjitəchizatı müəssisəsinə bir ay əvvəl müraciət etməlidir. Enerjitəchizatı müəssisəsi abonentin müraciətinə on gün ərzində baxır və razılıq verdikdə elektrik enerjisinin alqı-satqı müqaviləsində uyğun dəyişikliklər edilir.

**17.** "Elektrik enerjisindən istifadə Qaydaları"nın 9.12-ci bəndindəki hallara görə "Dövlət Enerjinəzarət" İdarəsinin tələbinə əsasən və ya 9.13-cü bəndindəki hallara görə enerjitəchizatı müəssisəsi əvvəlcədən xəbərdar etməklə abonentə elektrik enerjisi verilişini tam və ya qismən dayandıra bilər.

**18. Enerjitəchizatı müəssisəsinin abonent qarşısındakı məsuliyyəti "Elektrik enerjisindən istifadə Qaydaları"nın 10-cu fəslinə uyğun müəyyən edilir.**

**19. Tərəflər arasında elektrik enerjisindən istifadədə mübahisəli məsələlər yarandıqda, enerjitəchizatı müəssisəsi və ya abonent məhkəməyə müraciət edə bilər.**

**20.** Tərəflərin hüquqi ünvanları və onların hesablaşma hesabları:

**Enerjitəchizatı müəssisəsi** (adı, ünvanı)
Bank rekvizitləri: H/h №
VÖEN:
Kod:
VÖEN:
M/h №

**Abonent** (adı, ünvanı)
Bank rekvizitləri: H/h №
VÖEN:
Kod:
VÖEN:
M/h №

**21.** Tərəflər öz rekvizitlərinin dəyişdirilməsi barədə vaxtında rəsmi yazılı məlumat verirlər.

**22.** Bu müqavilə iki nüsxədə tərtib olunmuşdur. Onlardan biri enerjitəchizatı müəssisəsinə, digəri isə abonentə verilir.

Enerjitəhjizatı müəssisəsi (imza)
Abonent (imza)

**“Elektrik enerjisindən istifadə Qaydaları”na 4 nömrəli əlavə**

**Enerjitəjhizatı müəssisəsi ilə məişət abonenti (əhali) arasında elektrik enerjisinin alqı-satqısının birtipli**
**M Ü Q A V I L Ə S I**

Biz aşağıda imza edənlər enerjitəchizatı müəssisəsi adından (vəzifəsi, soyadı, adı, atasının adı) şəxsində və (ünvanı, soyadı, adı, atasının adı) məişət abonenti tərəflər arasında elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlayırıq.

**Müqavilənin şərtləri**

**1.** Tərəflər elektrik enerjisinin alqı-satqısı və istehlakı ilə əlaqədar qarşılıqlı münasibətlərdə “Elektrik enerjisindən istifadə Qaydaları”nı rəhbər tuturlar.
**2.** Hesablaşma elektrik sayğacı: (elektrik sayğacının quraşdırıldığı yer)
**3.** Məişət abonenti ilə elektrik enerjisinə görə hesablaşma quraşdırıldığı yerdən asılı olmayaraq hesablaşma yalnız elektrik sayğacının göstərişinə əsasən aparılır. Məişət abonenti ilə elektrik enerjisinə görə hesablaşmada elektrik enerjisi itkiləri (texnoloji sərfiyyat) nəzərə alınmır və ona görə ödəniş tutulmur.
**4.** Elektrik enerjisinə görə hesablaşmalar məişət abonenti istehlakçı qrupu üçün təyin edilmiş 1 kVts aktiv elektrik enerjisi (   ) manat tarif üzrə aparılır. Tarif qiymətləri tənzimləndikdə bu nəzərə alınır.
**5.** Elektrik enerjisinə görə hesablaşma dövrü 1 ay qəbul olunur.
**6.** Enerjitəchizatı müəssisəsinin səlahiyyətli nümayəndələri məişət abonentinin hesablaşma elektrik sayğacına baxış keçirmək üçün sayğac quraşdırılmış yerə maneəsiz buraxılmalıdırlar. Enerjitəchizatı müəssisəsinin səlahiyyətli nümayəndələri məişət abonentinin tələbi ilə xidməti vəsiqəni təqdim etməyə borcludurlar.
**7. Tərəflər arasında elektrik enerjisindən istifadədə mübahisəli məsələlər yarandıqda, enerjitəchizatı müəssisəsi və ya məişət abonenti bilavasitə məhkəməyə müraciət edə bilər.**
**8.** Bu müqavilə iki nüsxədə tərtib olunmuşdur. Onlardan biri enerjitəchizatı müəssisəsinə, digəri isə məişət abonentinə verilir.

Enerjitəjhizatı müəssisəsi (imza)
Məişət abonenti (imza)

www.istehlakci.az saytından

*layihə*

**Enerjitəchizatı müəssisəsi ilə məişət abonenti (əhali) arasında elektrik enerjisinin alqı-satqısının birtipli**
**M Ü Q A V İ L Ə S İ**

Biz aşağıda imza edənlər, "Təchizatçı" adlanacaq ( ) enerji təchizatı müəssisəsi adından (vəzifəsi, adı, soyadı, atasının adı) şəxsində və "İstehlakçı" adlanacaq (ünvanı, adı, soyadı, atasının adı) məişət abonenti tərəflər arasında elektrik enerjisinə dair alqı-satqı müqaviləsi bağlayırıq.

**1. Müqavilənin məzmunu.**

Bu müqavilə "Təchizatçı" və "İstehlakçı" arasında elektrik enerjisinin alqı-satqısına, onun istifadə və istismarına dair öhdəlik və şərtləri "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Enerji resurslarından istifadə haqqında", "Elektroenergetika haqqında", "Energetika haqqında" Azərbaycan Respublikasının qanunlarına, Mülki Məcəllənin müvafiq maddələrinə və digər qanunvericilik aktlarına əsasən tənzimləyir.

**2. Tərəflərin hüquq və vəzifələri.**

2.1. "Təchizatçı":

2.1.1. "İstehlakçı"nı fasiləsiz, təhlükəsiz və keyfiyyətli elektrik enerjisi və ödənişsiz elektrik sayğacı ilə təmin edir, sayğac balans mənsubiyyətinin sərhəd nöqtəsində quraşdırır, standartların müəyyən etdiyi müddətlərdə plan üzrə ödənişsiz dəyişdirir.

2.1.2. "İstehlakçı"nı elektrik enerjisindən istifadə qaydaları ilə ildə bir dəfə təlimatlandırır, elektrik enerjisindən istifadənin təhlükəsizliyini yoxlayır.

2.1.3. "İstehlakçı"nın enerji dəyərini ödəməsi üçün sayğac göstəricisi, enerji istehlakı miqdarı və son ödənişin tarixi, məbləği göstərilməklə ona hər ay bildiriş təqdim edir.

2.1.4. Balans mənsubiyyəti sərhədi daxilində (mənzilin girişindəki qidalandırıcı kabelin uclarına qədər) gərginliyi 1000 V-ta qədər olan elektrik qurğularının və naqillərin istismara yararlılığını təmin edir.

2.1.5. "İstehlakçı"nın mənzilindən (evindən) kənarda quraşdırılmış (binanın girişində, pilləkən meydançasında və s.) elektrik sayğacının, o cümlədən üzərindəki plombların qorunmasına və işçi vəziyyətdə saxlanmasına görə cavabdehlik daşıyır, elektrik sayğacına ümumi baxış keçirilməsi üçün ona şərait yaradır.

2.1.6. "İstehlakçı"ya yalnız istifadə olunmuş elektrik enerjisinə görə borc bildirişi təqdim edir.

2.1.7. "İstehlakçı"ya verilmiş elektrik enerjisinin sayğacla müəyyənləşən hesabı təqdim edildikdən (göndərildikdən) sonra bir ay müddətində tam məbləğdə ödənilmədikdə (ödəniş sənədində yanlışlıq olmadığı halda) enerji təchizatı dayandırılır, məbləğ ödənildikdən sonra təchizat dərhal bərpa edilir.

2.1.8. "Təchizatçı"nın səlahiyyətli nümayəndələri mənzilə baxış keçirdikdə xidməti vəsiqələrini göstərərək özlərini təqdim edirlər.

2.2. "İstehlakçı":

2.2.1. Müvafiq qaydalara əsasən məişət elektrik cihazları vasitəsilə elektrik enerjisindən istifadə edir.

2.2.2. Elektrik enerjisinə görə hesablaşma dövrü bir ay qəbul olunur. Özünəxidmət üsulu tətbiq edildikdə, hesablaşma kitabçasında müəyyən olunmuş gündən, yaxud "Təchizatçı" tərəfindən elektrik enerjisi sərfinə görə ödəniş sənədi təqdim edildiyi gündən sonra bir ay müddətində poçt və ya bank şöbələri vasitəsilə kod № _______________ saylı hesaba elektrik enerjisinin haqqını ödəyir.

2.2.3. “Təchizatçı”nın nümayəndələrini elektrik sayğacına baxış keçirmək üçün (sayğac mənzil daxilində quraşdırıldığı halda) mənzilə maneəsiz buraxır. Sayğacın normal işinə müdaxilə ehtimalı olduğu halda “Təchizatçı” tərəfindən müvafiq sənədləşmə aparılaraq sayğac yenisi ilə əvəzlənir, laboratoriya şəraitində “İstehlakçı”nın iştirakı ilə ekspertizadan keçilməsi tarixinə qədər saxlanılması üçün ona təhvil verilir.

2.2.4. Xüsusi mülkiyyətində olan mənzilin (evin) elektrik xətlərinin və elektrik avadanlıqlarının texniki vəziyyətinə və düzgün istismarına görə cavabdehlik daşıyır, aşkarlanmış nöqsanlar barədə “Təchizatçı”ya məlumat verir.

2.2.5. Mənzildə (evdə) quraşdırılmış elektrik sayğacının, o cümlədən üzərindəki plombların qorunmasına görə cavabdehlik daşıyır.

2.2.6. Ödəmə sənədində səhv və ya sayğac göstəricisində anlaşılmazlıq olduqda“Təchizatçı”ya yazılı məlumat verir.

2.2.7. Mənzildən (evdən) köçdükdə, 10 gün əvvəl “Təchizatçı”ya müqavilənin ləğv olunması barədə rəsmi məlumat verir, borc olmaması barədə arayış alır.

2.2.8. Qidalandırıcı elektrik xətlərinin açılması, elektrik qurğularının və avadanlığın zədələnməsilə əlaqədar baş vermiş qəzalar, yanğınlar, həmçinin insan xəsarətləri barədə “Dövlət Enerjinəzarət” İdarəsinə yazılı məlumat verir.

**3. Hesablaşma və ödəniş qaydaları**

3.1. İstifadə olunan elektrik enerjisinin miqdarı giriş xəttində quraşdırılmış _____________ markalı ________________ saylı sayğacın göstəricisinə əsasən müəyyən edilir. Hesablaşma elektrik sayğacının quraşdırıldığı yer _____________.

3.2. Elektrik enerjisinə görə hesablaşmada elektrik enerjisi itkiləri nəzərə alınmır və ona görə ödəniş tutulmur.

3.3. Elektrik enerjisinə görə hesablaşmalar məişət abonenti istehlakçı qrupu üçün təyin edilmiş 1 kvt-s aktiv elektrik enerjisinə görə ___________tarif üzrə aparılır. Tarif qiymətləri tənzimləndikdə bu nəzərə alınır.

3.4. “İstehlakçı”nın təqsiri olmadan uçot müvəqqəti pozulduqda, hesabat “Təchizatçı” və “İstehlakçı”nın razılığına əsasən uçot pozulana qədər və ya uçot bərpa edildikdən sonrakı dövrün sayğac göstəricilərinə görə orta gündəlik sərfinə uyğun aparılır. Belə hesablaşma dövrü 1 aydan artıq olmamalıdır və sayğacın normal işi “Təchizatçı” tərəfindən bərpa olunmalıdır.

3.5. “Təchizatçı”nın təqsirindən “İstehlakçı”ya aşağı keyfiyyətli (bir və ya bir neçə göstərici üzrə) elektrik enerjisi buraxıldıqda, enerjitəchizatı müəssisəsi, buraxılmış aşağı keyfiyyətli elektrik enerjisi dəyərinin 25%-i məbləğində “İstehlakçı”ya ödəniş ödəyir. Əgər bu səbəbdən “İstehlakçı”ya ziyan dəymişdirsə (elektrikqəbuledicilərin zədələnərək yararsız hala düşməsi, məhsulun zay olması və s.) “Təchizatçı” Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq “İstehlakçı” qarşısında maddi məsuliyyət daşıyır.

Qeyd: “Təchizatçı” dəymiş ziyan haqqında “İstehlakçı”dan daxil olmuş müraciətə 10 gündən gec olmayaraq baxır və qanunvericiliyə uyğun olaraq “İstehlakçı”ya ödəniş ödəyir.

**4. Xüsusi müddəalar.**

4.1. “Təchizatçı” balans mənsubiyyəti sərhədində elektrik enerjisinin keyfiyyət göstəricilərini qüvvədə olan standartların tələblərinə uyğun saxlamağa borcludur.

4.2. “Təchizatçı” və “İstehlakçı” balans mənsubiyyəti sərhədində elektrik enerjisinin keyfiyyətinə daimi, vaxtaşırı (ildə 2-4 dəfə) və ya epizodik nəzarət etməyə borcludurlar.

Qeyd: Elektrik enerjisinin keyfiyyət göstəricilərilə əlaqədar mübahisələrin həllində müstəqil ekspertizanın və ya ikitərəfli ekspertizanın rəyi əsas götürülür.

4.3. “Təchizatçı”nın icazəsi olmadan qidalandırıcı elektrik xətlərinin, ölçü cihazlarının dəyişdirilməsi və yerdəyişməsi yolverilməzdir.

4.4. Xüsusi hallar (baş verə biləcək qəzanın qarşısının alınması, qəzaların nəticələrinin ləğv olunması, təbii fəlakət və s.) istisna olmaqla, “Təchizatçı” və “İstehlakçı” arasında razılaşma yolu ilə həll

olunmayan mübahisələr yarandıqda, hər iki tərəf məhkəməyə müraciət edə bilər. Bu zaman məhkəmə qərarı olmadan "İstehlakçı"nın elektrik enerjisilə təchizatının dayandırılması yolverilməzdir. Borcun hesabatı və ödənişlə əlaqədar sənədlər "İstehlakçı"nın ilkin şifahi tələbi ilə təqdim edilir.

4.5. "Təchizatçı" istənilən səbəbdən təchizatda yaranan fasilələr barədə xəbərdarlıq edir (səbəbi və müddəti göstərilməklə).

4.6. "İstehlakçı" tərəfindən elektrik enerjisindən istifadədə pozuntuya yol verildiyi aşkar edildikdə, "Təchizatçı"nın nümayəndəsi onun və iki nəfər hal şahidinin iştirakı ilə akt tərtib edir və aktın bir nüsxəsini "İstehlakçı"ya təqdim edir. "İstehlakçı"nın izahatları və mülahizələri akta əlavə olunur. Pozuntu aşkarlanmadıqda da akt tərtib edir və bir nüsxəsini "İstehlakçı"ya təqdim edir.

4.7. Yerli şərait nəzərə alınmaqla hər iki tərəf arasında razılaşdırılmış əlavə şərt ("İstehlakçı"tərəfindən doldurulur)______________________________________________________

**5. Müqavilənin müddəti.**

5.1. Müqavilə imzalandığı andan qüvvəyə minir və növbəti 2 il ərzində etibarlıdır.

5.2. Tərəflərdən biri müqavilənin ləğv edilməsi barədə yazılı təşəbbüs göstərməzsə, müqavilənin müddəti növbəti 2 il üçün artırılmış hesab edilir.

5.3. Bu müqavilə 2 nüsxədə tərtib olunur və tərəflərin hər birində saxlanılır.

TƏRƏFLƏR

| "Təchizatçı" | "İstehlakçı" |
|---|---|
| ____________________RETSİ | ______________________ |
| Ünvan:____________________ | ______________________ |
| __________________________ | Ünvan:____________________ |
| Rekvizitlər:________________ | __________________________ |
| __________________________ | Ş/V: seriya____№__________ |
| Vəzifə, soyad:______________ | Verilmə tarixi:____________ |
| __________________________ | İmza:__________________ |
| İmza (möhür):______________ | Əlaqə telefonları:__________ |
| Əlaqə telefonları:____________ | ______________________ |